# "Müharibə və soyqırımı cinayətləri beynəlxalq hüquq kontekstində" mövzusunda "dəyirmi masa" keçirilib



Martın 29-da Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının təşkilatçılığı ilə "Müharibə və soyqırımı cinayətləri beynəlxalq hüquq kontekstində" mövzusunda "dəyirmi masa" təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev Milli Məclisin deputatlarının da iştirak etdikləri tədbirin məqsədinin 31 Mart soyqırımı qurbanlarının xatirəsini yad etmək və Ermənistanın törətdiyi cinayətləri bir daha xatırlatmaq olduğunu deyib. İcma sədri qeyd edib ki, keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kontekstində Ermənistan tərəfindən Azərbaycana qarşı müxtəlif səviyyələrdə törədilən cinayətlər hər kəsə məlumdur. Bu cinayətləri bütün dünya görüb və bilir. Artıq buna beynəlxalq siyasi qiymət verilib. Amma biz bunun beynəlxalq hüquq normaları çərçivəsində qiymətləndirilməsini istəyirik.

Tural Gəncəliyev ermənilər tərəfindən Xocalıda törədilən faciənin dünyada ən ağır cinayətlərdən biri olduğunu bir daha xatırladıb. O deyib: "Xocalı qətliamı insanlığa qarşı törədilən ən dəhşətli cinayətlərdən biridir. Dövlət siyasəti terrora xidmət etmək olan Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərə fərdi cinayət prinsipi əsasında qiymət verilməlidir. Onlar beynəlxalq hüquq qarşısında öz əməllərinə görə layiqli cavablarını alacaqlar".

Milli Məclisin deputatı Nizami Səfərov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq tribunalardan çıxışlarında Ermənistan tərəfindən ölkəmizə qarşı müxtəlif səviyyələrdə cinayətlərin törədildiyini dəfələrlə dünya ictimaiyyətinin diqqətinə çatdırıb. Ermənilər uzun illər ərzində Azərbaycan xalqına qarşı həm insanlıq əleyhinə, həm də müharibə cinayətləri törədiblər. Deputat qeyd edib ki, hər zaman sülhün tərəfdarı olan Azərbaycanın münaqişənin qan tökülmədən həllinə çalışsa da, qarşı tərəfin günahı səbəbindən onun bu istəyi reallaşmadı. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz 44 günlük Vətən müharibəsində Zəfər qazanaraq ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. İndi əsas məsələ kompensasiya, yəni bizə vurulan ziyanın ödənilməsidir.

Azərbaycana qarşı ikili standartlar siyasətinin yürüdüldüyünü bildirən deputatın sözlərinə görə, 1998-ci ildə Beynəlxalq Cinayət Məhkəməsi yaradılıb və 2002-ci il iyulun 1-də onun qanunları qüvvəyə minib. Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlərə müharibəyə qədər və ya müharibə dövründə mülki əhaliyə qarşı törədilmiş adamöldürmə, əhalini məhvetmə, kölə vəziyyətinə salma, deportasiya, zorlama, işgəncələr, siyasi, irqi və ya dini səbəblərə görə təqibetmələr aiddir. Xalq olaraq biz bunların əksəriyyətini görmüşük. Beynəlxalq Cinayət Məhkəməsi iddia edir ki, Xocalı faciəsi onun təsis edilməsindən əvvəl törədildiyi üçün Nizamnaməyə əsasən, o, bu faciəni törədənləri cəzalandırmaq imkanına malik deyil. Bu, ikili standartlardan başqa bir şey deyil.

Nizami Səfərov diqqətə çatdırıb ki, Azərbaycan hər zaman beynəlxalq hüquq normaları çərçivəsində siyasət yürüdür. Azərbaycan dövlət və ölkə olaraq ermənilərin bizə qarşı törətdiyi cinayətlərə hüquqi qiymət verilməsini tələb edir. Ermənistan terrorçu siyasət yürüdür və o, cəzasız qalmamalıdır. İnanırıq ki, Azərbaycana dəymiş ziyan ödəniləcək və xalqımıza qarşı cinayət, faciə törədənlər cəzalarını alacaqlar".

Fərdi cinayət məsələsinə diqqət çəkən deputat ölkəmizin vətəndaşlarına zərər verənlərin Azərbaycanın qanunları çərçivəsində cəzalandırılmasının mümkünlüyünü qeyd edib.

Sonra çıxış edən Milli Məclisin deputatları Vüqar İskəndərov və Nigar Arpadarai Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində mülki əhaliyə, dini və mədəniyyət abidələrimizə qarşı törədilən cinayət əməllərindən danışıblar. Bildirilib ki, Ermənistan bu cinayət əməllərinə görə mütləq cavab verməlidir.